Respublika .- 2024.- 14 noyabr (№ 250).- S.13.

COP29

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası

# Qlobal həmrəylik

**Qlobal istiləşmənin böhrana çevrildiyi dövrdə dünya iqlim dəyişmələrinin dağıdıcı təsirlərinə qarşı mübarizədə bir araya gəlməkdədir. Buzlaqların əriməsi, səhralaşma, ekstremal hava şəraitinin artması kimi problemlər təkcə ekoloji deyil, həm də sosial-iqtisadi fəlakətlərin xəbərçisidir. Bu çətinliklər fonunda iqlim məsələlərinin müzakirə edildiyi COP29 sammiti planetimizin gələcəyini təmin etmək üçün beynəlxalq həmrəyliyin nə qədər vacib olduğunu göstərir.**

Azərbaycan bu mübarizədə liderlik nümayiş etdirir. Ölkə beynəlxalq iqlim təşəbbüslərində fəal iştirak edərək həm regional, həm də dünya miqyasında əhəmiyyətli layihələrə töhfə verir. Azərbaycan Əməliyyat Şirkəti və COP29-un rəsmi logistika tərəfdaşı "Rhenus" şirkəti tərəfindən təşkil edilən panel sessiyalarında marjinal qrupların problemləri diqqət mərkəzinə gətirildi. Xüsusilə qadınlar, yerli icmalar və gənclərin iqlim dəyişmələrindən təsirlənməsi və həssas qruplar üçün ədalətli həllərin axtarışı əsas müzakirə mövzularından biri oldu.

COP29-un İqlim üzrə Gənclər Çempionu Leyla Həsənova çıxışında gələcək nəsillərin yaşıl dünyada həyatını təmin etməyin vacibliyini vurğuladı. *"Mən, bu gün iqlim ədalətinin bərqərar olmasına töhfə verməkdən qürur duyuram. İqlim dəyişmələri yalnız ekoloji problem deyil, bu, həm də sosial ədalət məsələsidir. Bu kontekstdə qadınların, gənclərin və yerli icmaların səsi dinlənilməlidir".*

Kiçik Ada Dövlətləri Alyansının nümayəndəsi Rueanna Haynes iqlim dəyişmələrindən ən çox təsirlənən marjinal qrupların üzləşdiyi problemləri diqqətə çatdırdı: *"Dünya üzrə 800 milyon insan iqlim dəyişmələrinin təsirlərinə qarşı həssasdır. Bu insanların əksəriyyəti qadınlar, uşaqlar və gənclərdir. Əgər qlobal istiləşmə 2 dərəcə artarsa, bu rəqəm milyardlara çata bilər. Bu vəziyyət bizdən dərhal*





*tədbir görməyi tələb edir".* Haynes əlavə etdi ki, ərzaq təhlükəsizliyi, təbii fəlakətlər və iqtisadi imkanların məhdudluğu kimi problemlər qadınlara və gənclərə daha çox təsir edir. Onun sözlərinə görə, iqlim dəyişmələrinə adaptasiya prosesində inklüziv yanaşma olmadan əhəmiyyətli irəliləyişə nail olmaq mümkün deyil.

İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panelin İşçi Qrupunun sədr müavini dr. Adele Thomas kiçik ada dövlətlərinin iqlim dəyişmələrində xüsusilə həssas olduğunu dedi: *"Kiçik Ada Dövlətləri coğrafi mövqeləri, iqtisadi asılılıqları və təbii resurslara olan ehtiyacları səbəbindən iqlim dəyişmələrinin təsirlərinə ən həssas qruplardan biridir. Dəniz səviyyəsinin yüksəlməsi və ekstremal hava hadisələri bu icmaların iqtisadiyyatına və sosial strukturuna ağır zərbələr vurur".* Thomas, həmçinin su ehtiyatlarının çatışmazlığını, dəniz ekosistemlərinin məhvini və ərzaq təhlükəsizliyinin təhdid altında olduğunu vurğuladı. Onun sözlərinə görə, bu ölkələrdəki iqlim tədbirləri yalnız beynəlxalq maliyyə dəstəyi və texniki əməkdaşlıqla mümkün ola bilər.

"Rhenus" şirkətinin idarə heyətinin nümayəndəsi Aleksandra Oqneva iqlim dəyişmələrinə qarşı mübarizədə logistikanın həlledici rolunu qeyd etdi: *"Biz həssas icmaların iqlim dəyişmələrinin təsirlərinə qarşı müdafiəsini təmin etmək üçün logistik həllər təqdim edirik. Çatdırılma zəncirlərinin effektivliyini artırmaq, zəruri resursların və humanitar yardımların ən qısa zamanda çatdırılmasını təmin etmək əsas məqsədimizdir".* Münaqişə bölgələrində və iqlim fəlakətlərindən təsirlənən ərazilərdə əməliyyatların effektivliyini artırmaq üçün müasir texnologiyalardan istifadə olunur".

Azərbaycan iqlim dəyişmələri ilə mübarizədə beynəlxalq səyləri dəstəkləməklə yanaşı, daxili siyasətində də "yaşıl enerji" və davamlı inkişaf prinsiplərinə sadiqdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə, enerji sektorunda bərpaolunan mənbələrin payını artırmaq və ekoloji tarazlığı qorumaq üçün müxtəlif təşəbbüslər irəli sürür. "Yaşıl enerji zonası" layihəsi bu sahədə Azərbaycanın qlobal liderliyini gücləndirir.

Prezident İlham Əliyevin vurğuladığı kimi: *"Azərbaycanın iqlim dəyişikliyinə qarşı mübarizədə qlobal səylərə qoşulması bizim planetimizin gələcəyinə töhfə vermək üçün qətiyyətli iradəmizin göstəricisidir".*

COP29 sammiti bir daha göstərdi ki, iqlim dəyişmələrinə qarşı mübarizədə yalnız qlobal həmrəylik və birgə əməkdaşlıq uğur gətirə bilər. Azərbaycan, "yaşıl enerji" və beynəlxalq səviyyədə təşəbbüslərə töhfələri ilə bu mübarizədə aparıcı rol oynayır. Davamlı inkişaf üçün atılan addımlar dünya ölkələri arasında yeni əməkdaşlıq imkanlarının yaradılmasına xidmət edir. COP29 iqlim ədaləti və davamlı inkişaf naminə dünya dövlətlərinin qətiyyətli addımlar atmasının vacibliyini bir daha vurğuladı. Azərbaycanın bu istiqamətdəki fəallığı və liderliyi, yaşıl və ədalətli gələcəyin qurulmasında mühüm töhfədir. İqlim dəyişmələri ilə mübarizə bütün dövlətlərin və icmaların birgə səyləri ilə mümkün olacaq.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**